**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

*Əlyazması hüququnda*

**LEYLA QADİR QIZI MƏCİDOVA**

# LƏNKƏRAN QƏZASININ SOSİAL-İQTİSADİ VƏZİYYƏTİ
(XIX ƏSRIN SONLARI – XX ƏSRIN ƏVVƏLLƏRI)

İxtisas: 5503.02 – Vətən tarixi

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

# A V T O R E F E R A T I

**BAKI – 2016**

*Dissertasiya işi Lənkəran Dövlət Universitetinin "Tarix və fəlsəfə" kafedrasında yerinə yetirilmişdir.*

**Elmi rəhbər:**
Tarix elmləri doktoru, professor **E.B.Muradəliyeva**

**Rəsmi opponentlər:**
Tarix elmləri doktoru, professor **K.K.Şükürov**
tarix üzrə fəlsəfə doktoru, dosent **N.Ə.Əhmədova**

**Aparıcı müəssisə:** Azərbaycan Respublikası Prezidentinin yanında Dövlət İdarəçilik Akademiyası

Müdafiə Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində 5502.01 – "Ümumi tarix", 5503.02 – "Vətən tarixi", 5507.01 – "Beynəlxalq münasibətlər tarixi" və 5509.01 – "Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları" ixtisasları üzrə tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.161 Dissertasiya Şurasının «_18__» ___05________2016-cı il tarixli iclasında, saat______ keçiriləcəkdir

**Ünvan:** AZ1143, Azərbaycan Respublikası, Bakı, ş., H.Cavid pr., 115

Dissertasiya ilə AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq olar

**Avtoreferat** "___"__________2016-cı il tarixdə göndərilmişdir

D.01.161 Dissertasiya Şurasının
elmi katibi tarix üzrə fəlsəfə doktoru **C.Ə.Bəhramov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** XIX əsrin ilk otuzilliyində yarısında (1828) Azərbaycanın şimal bölgələri Rusiya tərəfindən işğal olundu. Azərbaycanın şimal torpaqlarının Rusiya tərəfindən zəbt edilməsi ilə Azərbaycan xalqını müharibə nəticəsində zorla iki hissəyə bölmək kimi tarixi ədalətsizlik baş verdi. Bu tarixi ədalətsizlik nəticəsində vahid xalq bölündü və onların hər biri bir-birindən fərqli sosial-iqtisadi, siyasi və mədəni inkişaf yoluna düşməyə məcbur oldu. İşğal nəticəsində Azərbaycan çar Rusiyası sənayesinin xammal bazasına, tacirlərinin isə satış bazarına çevrildi. Azərbaycan iqtisadiyyatı müstəmləkə iqtisadiyyatı xarakteri aldı. Bu isə o demək idi ki, yalnız Rusiya sənayesi üçün xammal istehsal etməli, sənayesi də buna xidmət etməli idi. Nəhayət, ən başlıcası budur ki, Şimali Azərbaycan Rusiyanın ucqar müstəmləkəsinə çevrildi.

Quzey Azərbaycanın Rusiya tərəfindən istila edilməsinin gedişində yeni inzibati sistem yaradılmağa başladı. Rus qoşunlarına müqavimət göstərən xanlar hakimiyyətdən məhrum edilir, xanlıqlar isə başda komendant olmaqla dairə və əyalətlərə çevrilirdilər. XX əsrin 20-ci illərində çarizmin müstəmləkəçilik siyasəti nəticəsində bütün xanlıqları ləğv edildi. Şəki xanlığında 1819-cu ildə, Şirvan xanlığında 1820-ci ildə, Qarabağ xanlığında 1822-ci ildə, Lənkəran xanlığında 1826-cı ildə köhnə idarəçilik ləğv edilərək, komendantlıqlarla əvəz edildi. Bu idarə sistemi özünü doğrultmadığı üçün XIX əsrin 40-ci illərindən başlayaraq Şimali Azərbaycanda inzibati cəhətdən quberniya və qəza sistemi yaradıldı. Çar Rusiyası tərəfindən Şimali Azərbaycanda yaradılan bu qəzalardan biri də Lənkəran qəzası idi.

Lənkəran qəzası 1841-1846 illərdə Kaspi vilayətinin tərkibinə daxil olmuş, 1846 il 14 dekabr tarixli çar fərmanı ilə Şamaxı quberniyası təşkil edildikdə onun tərkibinə qatılmışdı. 1859-cu il Şamaxı zəlzələsindən sonra onun mərkəzi Bakıya köçürüldüyündən Bakı quberniyası adlandırılmışdı. Qəzanın mərkəzi Lənkəran şəhəri idi. Qəza Səbican, Lənkəran, Ərkivan məntəqələrindən və Muğan pristavlığından ibarət idi.

Şimali Azərbaycanın Rusiya tərəfindən işğalının başa çatmasından sonra bu ölkə müstəmləkəyə çevrilsə də, Rusiyaının tərkibində kapitalizmin inkişaf yoluna düşdü. Ölkə Rusiya tərəfindən işğal ediləndən sonra elə ilk illərdə Azərbaycan xanlıqlarında mövcud olan müxtəlif pul sistemləri vahid rus pul sistemi ilə əvəz edildi. Bu tədbir ölkənin ayrı-ayrı rayonlar arasında ticarətin, əmtəə-pul münasibətlərinin inkişafında mühüm rol oynadı. Azərbaycan iqtisadiyyatı müstəmləkə xarakteri alsa da, o, metropoliyanın xammal bazasına çevrilsə də, Rusiya imperiyasının ayrılmaz hissəsi kimi Şimali Azərbaycan

Rusiyanın iqtisadi inkişaf axınına cəlb olundu, onun bazarına qoşuldu və bu bazar vasitəsilə dünya əmtəə dövriyyəsində iştirak etməyə başladı. Bu inkişaf XIX əsrin sonu – XX əsrin əvvəllərində özünü daha da qabarıq şəkildə göstərməyə başladı.

XIX əsrin sonu – XX əsrin əvvəllərində Şimali Azərbaycanın istər siyasi, istərsə də iqtisadi baxımdan ən əlverişli quberniyalarından biri olan Bakı quberniyasının tərkibində olan Lənkəran qəzası kapitalist münasibətlərinin inkişaf etdiyi bölgələrdən biri idi. Bu dövrdə Lənkəran qəzası əsasən aqrar bölgə olsa da Azərbaycanın balıq sənayesi və meşə materialları istehsalı mərkəzinə çevrilmişdir.

XIX əsrdən etibarən Azərbaycanda kapitalist münasibətlərinin inkişaf etməsi tariximizdə yeni bir mərhələ təşkil edir. Bu baxımdan qəzaların sosial iqtisadi tarixinin öyrənilməsi olduqca əhəmiyyətlidir.

Ümummilli liderimiz Heydər Əliyev 1997-ci il yanvarın 31-də Azərbaycan EA-nın aparıcı alimləri ilə görüşündə tarixin yenidən yazılmasının əhəmiyyətindən danışaraq qeyd edirdi ki, "indi qarşıda duran ən vacib vəzifə ondan ibarətdir ki, Azərbaycanın XIX-XX əsrlər tarixi yazılmalıdır... Bu əsrlərin tədqiqi zamanı tariximiz bir tərəfdən təhrif olunub, digər tərəfdən isə bəziləri keçmişdə nə varsa götürüb qəzetlərdə, kitablarda qaralamağa, pisləməyə başlayıblar."[1] Məhz XIX-XX əsrlər tariximizin təhrif olunması səbəbindən tədqiq olunan mövzunun aktuallığı mühüm əhəmiyyət kəsb edir.

**Tədqiqat işinin məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi XIX əsrin sonu – XX əsrin əvvəllərində Lənkəran qəzasının sosial-iqtisadi vəziyyətini araşdırmaq, bu dövrdə əhalinin etnik-dini tərkibini müəyyən etmək, bölgədə inkişaf etməkdə olan sənaye və kənd təsərrüfatı sahələrinin inkişaf dinamikasını izləməkdir. Bu məqsədin həyata keçirilməsi isə konkret olaraq aşağıdakı vəzifələrin yerinə yetirilməsini zəruri etmişdir:

- XIX əsrin sonu – XX əsrin əvvəllərində Lənkəran qəzasının iqtisadi və sosial inkişafının spesifik xüsusiyyətlərinin müqayisəli təhlilini aparmaq;
- XIX əsrin sonu – XX əsrin əvvəllərində bölgənin kənd təsərrüfatı sahələrinin – əkinçilik, maldarlıq, o cümlədən suvarma sistemi və sudan istifadənin inkişaf xüsusiyyətlərini araşdırmaq;
- XIX əsrin sonu – XX əsrin əvvəllərində Lənkəran qəzasında aqrar münasibətlər, kəndlilərin kateqoriyaları, torpaq mülkiyyət formaları, vergi və mükəlləfiyyətlər və onların mahiyyətini tədqiq etmək;
- XIX əsrin sonu – XX əsrin əvvəllərində qəzanın əsas ticarət və sənət-

[1] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Səkkizinci kitab. Bakı: 1998, s. 367

karlıq mərkəzləri, bölgənin sənaye müəssisələrinin meydana gəlməsi, xüsusilə də Lənkəran şəhərinin ticarət və sənaye mərkəzlərindən biri kimi inkişaf dinamikasını təhlil etmək;

- XIX əsrin sonu – XX əsrin əvvəllərində Lənkəran qəzasının sosial durumu, sosial təbəqələşmə və sosial qruplar arasındakı münasibətləri araşdırmaq;
- XIX əsrin sonu – XX əsrin əvvəllərində bölgə əhalisinin etnik və dini tərkibi, əhalinin say dinamikası, şəhər və kəndlərdə yaşayan əhali arasında iqtisadi və sosial münasibətləri tədqiq etmək.

**Tədqiqatın xronoloji çərçivəsi.** Dissertasiyanın xronoloji çərçivəsi tədqiq olunan dövrə əsasən müəyyənləşdirilmiş, araşdırma zamanı xronoloji ardıcıllıq gözlənilmişdir. Tədqiqat əsəri, XIX əsrin sonlarından etibarən Bakı quberniyasında mövcud olan sosial-iqtisadi vəziyyətin şərhi ilə başlayır, XIX əsrin sonlarında Lənkəran qəzasının sosial-iqtisadi durumu müqayisəli şəkildə təhlil olunur, bu iş XX əsrin əvvəlləri üçün də davam etdirilir.

**Tədqiqatın mənbə bazası.** Dissertasiya yazılarkən, Şimali Azərbaycanın XIX əsrin sonu – XX əsrin əvvəllərinin sosial-iqtisadi tarixini dolğun şəkildə özündə əks etdirən, müxtəlif arxivlərdə saxlanılan dövrün arxiv sənədləri, xüsusilə də Azərbaycan Respublikası Mərkəzi Tarix Arxivində saxlanılan sənədlər tədqiqata cəlb olunmuşdur.

“Bakı quberniyası və Dağıstan vilayətində əkinçilik və dövlət əmlakı idarəsi” adlı fondda saxlanılan arxiv sənədlərində[1] 1868-1918-ci illərdə Lənkəran qəzası dövlət kəndlilərinin torpaq sahələri və qəzanın vergi verən kəndliləri, vergilərin miqdarı haqqında geniş məlumat verilir. Həmçinin Lənkəran qəza rəisinin torpaqdan istifadə qaydalarını pozan şəxslər haqqında raportları, eyni zamanda qanunsuz olaraq meşə zolağını qıran kəndlilər haqqında meşəbəyilərin raportları və digər məsələlər öz əksini tapmışdır.

“Bakı quberniya idarəsi”[2] adlı fondda saxlanılan arxiv sənədlərində 1848-1917 illərdə Lənkəran qəzasının bütün sosial-iqtisadi sahələri ilə bağlı ən qiymətli məlumatlar toplanmışdır. Burada bölgənin kənd təsərrüfatı sistemi, ticarət sahələri, əhalinin sosial durumu, əhalinin say dinamikası və s. məsələlər haqqında geniş məlumatlar vardır.

“Bakı qubernatorunun dəftərxanası”[3] və Lənkəran qəzasının polis idarə-

---

[1] Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (bundan sonra – ARDTA), f. 22, siy. 1, iş 21, 33, 211, 1022; siy. 3, iş 250, 507, 765, 930, 2072, 2126, 2439.

[2] Yenə orada, f. 44, siy. 1, iş 2, 21, 145; siy. 4, iş 114, 294, 360, 416; siy. 5, iş 28, 32, 59, 85;

[3] Yenə orada, f. 45, siy. 1. iş 4; siy.2. iş 356, 366, 424.

si”[1] adlı fondlarda saxlanılan arxiv sənədlərində də qəzanın sosial-iqtisadi həyatı haqqında dəyərli məlumatlar toplanmışdır. Eyni zamanda bu arxiv sənədlərində saxlanılan qəza rəislərinin müxtəlif sahələri əhatə edən raportları tədqiqat işi üçün olduqca əhəmiyyətlidir.

“Bakı quberniyasının köçürmə məsələləri üzrə idarəsi”[2] adlı fonddan arxiv sənədlərində 1870-1918-ci illərdə mərzlənmiş əkin və meşə sahələrinin planları, torpaqdan istifadə edən kəndlilərin ərizə və onların şikayətləri və digər bu tipli məsələlər əks olunmuşdur.

“Bakı quberniyası statistika komitəsi” adlı fondda saxlanılan arxiv sənədlərində[3] 1901-1916-cı illərdə qəzanın sosial-iqtisadi həyatı ilə əlaqədar çox qiymətli məlumatlar vardır. Bu sənədlər vasitəsilə bölgənin kənd təsərrüfatı, sənətkarlıq və ticarət sahələri, xüsusi ilə də əhalinin say tərkibi, etnik-dini durum haqqında ətraflı məlumat əldə etmək mümkündür

“Bakı Mərzləmə Dairəsi idarəsi”[4] və “Bakı quberniya zemstvo aqronomu”[5] adlı fondlarda saxlanılan arxiv sənədlərində 1886-1918-ci illərdə mərzçi və topoqrafların hesabatları, kəndlilərə məxsus torpaq sahələrinin xəritə və sxemləri əks olunmuşdur.

Mövzu tədqiq olunarkən digər rəsmi sənədlərdən və rəsmi sənədləri özündə əks etdirən toplu məcmuələrdən istifadə olunmuşdur.[6]

**Mövzunun öyrənilmə səviyyəsi.** Azərbaycan tarixçilərinin və bir sıra xarici ölkə tədqiqatçılarının XIX-XX əsrin əvvəllərində Azərbaycanın sosial-iqtisadi tarixi ilə bağlı tədqiqat əsərləri Azərbaycanın XIX-XX əsrin əvvəllərində sosial-iqtisadi tarixinin tədqiqi üçün əsas elmi baza rolunu

---

[1] ARDTA, f. 81, siy. 1, iş 2, 11, 14,32.
[2] Yenə orada, f. 51, siy. 1, iş 362.
[3] Yenə orada, f. 48, siy. 1, iş 6.
[4] Yenə orada, f. 56, siy. 1, iş 207, 1336.
[5] Yenə orada, f. 59, siy.1, iş 1, 3, 7.
[6] Кавказский календарь на 1888 год. Тифлис: 1887; Кавказский календарь на 1897 год. Тифлис: 1896; Кавказский календарь на 1901 г. Тифлис, 1900; Кавказский календарь на 1907 год. Тифлис: 1906; Кавказский календарь на 1915 год. Тифлис: 1914; Кавказский календарь на 1917 год. Тифлис: 1916; Обзор Бакинской Губернии за 1896 год. Баку: 1897; Обзор Бакинской Губернии за 1902 год. Баку: 1897; Обзор Бакинской Губернии за 1903 год. Баку: 1904; Обзор Бакинской Губернии за 1904 год. Баку: 1905; Обзор Бакинской губернии за 1913 год. Баку: 1915; Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края. Том 2. Тифлис: 1887; Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края. Том 5. Тифлис: 1888.

oynayır. Yerli və xarici mütəxəssislərin Azərbaycanın qeyd olunan dövrdəki sosial-iqtisadi tarixi ilə bağlı müxtəlif səpkili tədqiqat əsərləri mövzunun tədqiq olunması üçün əlverişli imkan yaratmışdır.

Vətən tarixşünaslığına nəzər yetirdikdə XIX-XX əsrin əvvəllərində Azərbaycanın sosial-iqtisadi tarixi, Azərbaycanda kapitalizmin inkişafı, kənd təsərrüfatının müxtəlif sahələri görkəmli alim Ə.S.Sumbatzadənin əsərlərində geniş şəkildə işıqlandırılmışdır.[1]

XIX-XX əsrin əvvəllərində Azərbaycanda kənd təsərrüfatı sistemi, aqrar münasibətlərin inkişafı, kənd təsərrüfatı sistemində kapitalist münasibətlərinin yaranması və inkişafı məsələləri tarixçi-alim M.Ə.İsmayılovun tədqiqatlarında geniş və müqayisəli formada öz əksini tapmışdır.[2]

Azərbaycanda kənd təsərrüfat, xüsusilə də əkinçilik və maldarlığın inkişafı ilə bağlı T.Ə.Bünyadovun əsərlərinin də əhəmiyyəti bölükdür.[3]

XIX-XX əsrin əvvəllərində Azərbaycanda ipək sənayesi, bu sahənin inkişafı, ipəkçiliyin xarici ticarətdə rolu, ipək ticarəti dövriyyəsi T.T.Vəliyevin əsərlərində geniş surətdə işıqlandırılmışdır.[4]

XIX əsrin sonu – XX əsrin əvvəllərində Şimali Azərbaycan kəndlərində aqrar münasibətləri tədqiq edən tarixçi alimlərdən biri də H.N.Həsənovdur.

---

[1] Сумбатзаде А.С. К вопросу о характере товарного производства в сельском хозяйстве Азербайджана во второй половине XIX века // Azərb. SSR EA Xəbərləri. 1954, №3; yenə onun. К истории развития медеплавильной промышленности в Азербайджане во II пол. XIX в. // Kirov adına ADU-nun Elmi Əsərləri, 1955, №4; yenə onun. Развитие капитализма в России и его влияние на экономику Азербайджана во второй половине XIX в. // Присоединение Азербайджана к России и его прогрессивные последствия в области экономики и культуры (XIX – нач. XX вв.). Баку: 1955; yenə onun. Развитие сельского хозяйства Азербайджана в конце 50-х и в 60-х гг. XIX в. // Azərb. SSR. EA Tarix və Fəlsəfə İnstitutunun Əsərləri, VI cild, 1955; Сумбатзаде А.С. Сельское хозяйство Азербайджана в XIX в. Баку: 1958; yenə onun. Промышленный капитализм в Азербайджане, Генезис капитализма в Закавказье. Баку: 1969.

[2] İsmayılov M.Ə. XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı. Bakı: 1960; yenə onun. Капитализм в сельском хозяйстве Азербайджана на исходе XIX и начале XX вв. Баку: 1964; yenə onun. Социально-экономическая структура Азербайджана в эпоху империализма. Баку: 1982.

[3] Bünyadov T.Ə. Azərbaycanda əkinçiliyin inkişafı tarixinə dair. Bakı: 1974; yenə onun. Azərbaycanda maldarlığın inkişafı tarixindən. Bakı, 1969.

[4] Vəliyev T.T. İmperializm dövründə Azərbaycanda ipəkçiliym vəziyyəti // Azərbaycan EA Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası), 1971, №1, s.19-26; Vəliyev T.T. XX əsrin əvvəllərində Azərbaycanın ipək emalı sənayesi. Bakı: 1977.

Onun tədqiqatlarında dövlət kəndliləri, onların statusu, kəndlilərin torpaqdan istifadə qaydaları, torpaq sahibliyi və onun xüsusiyyətləri, Azərbaycan kəndlərində kapitalist münasibətlərinin yaranması və inkişafı məsələləri geniş şəkildə tədqiq olunmuşdur.[1]

Qeyd olunan dövrdə bölgənin maddi-mədəni həyatını, xüsusilə də etnoqrafik xüsusiyyətlərini öyrənmək üçün H.A.Kəlbiyevin əsərlərinin də əhəmiyyəti böyükdür.[2]

N.Cəfərlinin "Lənkəran" adlı monoqrafiyası[3] bölgənin tarixinin öyrənilməsində olduqca əhəmiyyətlidir. XIX-XX əsrin əvvəllərində Lənkəran şəhərinin iqtisadi, sosial mədəni həyatından bəhs edən bu monoqrafiya bölgənin aparıcı şəhəri olan Lənkəran və qismən də digər ətraf ərazilər haqqında maraqlı məlumat və faktlarla zəngindir.

B.H.Hüseynbalaoğlu və M.M.Talışlının "Lənkəran" monoqrafiyasında XIX-XX əsrlərdə Lənkəran bölgəsinin icmal xarakterli tarixi, iqtisadi, sosial durumu, mədəni həyatı, istehsal sahələri haqqında verilən məlumatlar olduqca maraqlıdır.[4]

XIX əsrin sonlarında dövlət kəndlilərinin mükəlləfiyyətləri, kəndlilərin pay torpaqları onlardan istifadə xüsusiyyətləri İ.M.Həsənovun tədqiqatlarında geniş şəkildə öz əksini tapmışdır.[5]

XIX əsrin iqtisadi tarixini öyrənmək üçün M.M.Əfəndiyevin əsərlərinin əhəmiyyəti böyükdür.[6]Onun tədqiq etdiyi XIX əsrdə Azərbaycanda rənc-

---

[1] Гасанов Г.Н. Из истории Североазербайджанской деревни в конце XIX– начале XX вв. Баку: 2007.

[2] Kəlbiyev H.A. Şilavar haqqında tarixi etnoqrafik oçerklər. Bakı: 2003; Kəlbiyev H.A. Talışların maddi və mənəvi mədəniyyət dəyərləri. Lənəkəran: 2004; yenə onun. Azərbaycanın cənub-şərq bölgəsinin etnoqrafik xüsusiyyətləri. Bakı: 2012.

[3] Cəfərli N. H. Lənkəran (tarixi oçerk). Bakı: 1995.

[4] Hüseyinbalaoğlu B.H., Talışlı M.M. Lənkəran. Bakı: 1990.

[5] Гасанов И.М. Захват беками надельных земель государственных крестьян Азербайджана в конце XIX века // Изв. АН Азерб. ССР. Сер.общ.наук, 1861, №9; yenə onun. Повинности государственных крестьян Азербайджана в конце XIX в. // Изв. АН Азерб. Сер. общ. наук, 1962, №11-12; стр. 29-35.

[6] Эфендиев М.М. Захват местными феодалами казенных земель и ухудшение землепользования государственных крестьян // Azərbaycan Qiyabi Pedaqoji İnstitutunun Əsərləri, IV cild, II buraxılış, 1957; yenə onun. К вопросу об институтах ранджбарства в Азербайджане в XIX веке // Azərbaycan SSR EA Tarix və Fəlsəfə İnstitutunun Əsərləri, II cild, 1952; yenə onun. К вопросу о форме феодальной ренты у государственных крестьян Азербайджана в 50-х гг. XIX вв. // Azərbaycan SSR EA Xəbərləri, 1957, № 6.

bərlik institutu, dövlət kəndliləri və onların statusu, feodallar və dövlət kəndliləri arasında sosial münasibətlər sahəsindəki tədqiqatları olduqca əhəmiyyətlidir.

XIX-XX əsrin əvvəlləri Azərbaycan qəzalarının sosial-iqtisadi tarixinin tədqiqi Rusiya tarixşünaslığında da bu və ya digər formada öz əksini tapmışdır. Rus tarixşünaslığında dövrün tədqiqatçılarından ən qiymətli tədqiqatlar D.Kistenyovun apardığı tədqiqatlardır.[1] Onun Lənkəran qəzası ilə bağlı apardığı tədqiqatlar tədqiqatımız üçün olduqca əhəmiyyətlidir. Onun qeyd edilən əsərlərində XIX əsrin sonu – XX əsrin əvvəllərində Lənkəran bölgəsinin sosial-iqtisadi tarixi araşdırılmış və uğurlu nəticələr əldə olunmuşdur. Bu əsərlərdə bölgənin kənd təsərrüfatı, aqrar münasibətlər, torpaq sahibliyi, torpaqdan istifadə, qəzanın su təsərrüfatı, sudan istifadə, bölgənin etnik-siyasi mənzərəsi və digər məsələlər bu və ya digər formada tədqiq olunmuşdur.

Dövrün tədqiqatçılarından B.D.Moçalovun əsərlərinin də əhəmiyyəti böyükdür.[2] Onun tədqiqatlarında çar Rusiyasının Cənubi Qafqazda keçirdiyi islahatlardan sonrakı dövrdə qəzaların sosial-iqtisadi tarixinə dair maraqlı məlumatlar vardır.

Tədqiqatçılardan A.B.Qrebnerin araşdırmaları da dövrün tədqiqi üçün əhəmiyyətlidir.[3] Onun araşdırmalarında Cənubi Qafqazdan keçən ticarət yolları, bu yolların bölgədə ticarətin və kapitalist münasibətlərinin inkişafına təsiri tədqiq olunmuşdur.

Mövzu ilə əlaqədar olaraq N.N.Şavrovun da qiymətli tədqiqatları vardır. Onun əsərlərində Qafqazda ipəkçilik sənayesinin inkişafı, arıçılıq təsərrüfatı, balıqçılığın inkişaf xüsusiyyətləri və digər təsərrüfat sahələri tədqiq olunmuşdur.[4]

---

[1] Кистенев Д.А. Источники благосостояния крестьян Ленкоранского уезда. ТКОСХ. Тифлис: 1889, №1-2, с.81; Кистенев Д.А. Кустарная промышленность и посторонние заработки крестьян в Ленкоранском уезде. Труды КОСХ. Тифлис: 1891, № 9-10, с.405; Кистенев Д.А. Экономический быт государственных крестьян Ленкоранского уезда Бакинской губернии. МИЭБГКЗК, т. 7. Тифлис: 1887.

[2] Мочалов В.Д. Крестьянское хозяйство в Закавказье в конце XIX в. Москва: 1958; Мочалов В.Д. Крестьянская реформа в Закавказье // Доклады и сообщения института истории АН СССР, вып. 3. Москва: 1954.

[3] Гребнер. А.В. Торговые дороги Закавказья, Санкт-Петербург: 1896.

[4] Шавров Н.Н. Кустарные шелковые промыслы Кавказа. Тифлис: 1902; yenə onun. Пчеловодство на Кавказе // Газ. "Кавказ", 1885, №145; yenə onun. Очерк пчеловодства в Закавказье // СМИЭБГКЗК, Т. IV. Ч. II, Тифлис: 1888;

Tədqiqat işi araşdırılarkən eyni zamanda rus tarixçilərindən İ.M.Jdanov,[1] İ.İ.Kaluqin,[2] S.K.Xatisov,[3] S.Zelinski,[4] S.İ.Gülüşambarov,[5] Ə.A.Umayev,[6] E.İ.Kondratenko,[7] A.S.Piralov,[8] İ.P.Petruşevskiy,[9] P.F.Riss,[10] B.V.Miller,[11] A.Malışev[12] və digərlərinin əsərlərindən də istifadə olunmuşdur.

**Tədqiqatın metodoloji əsası.** Dissertasiya işində qarşıya qoyulan məsələləri tədqiq edərkən mövcud fakt və hadisələrin müqayisəli təhlilinə üstünlük verilmiş, nəzəri yanaşma metodu əsas götürülərək tarixilik prinsipinə əməl olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiq olunan mövzunun müxtəlif tərəfləri və istiqamətləri ilə bağlı istər vətən tarixşünaslığında, istərsə də əcnəbi tarixşünaslıqda müəyyən tədqiqatlar aparılmış və elmi əsərlər yazılmışdır. Lakin qeyd olunan dövrdə Lənkəran qəzasının sosial-iqtisadi tarixi konkret olaraq tədqiqata cəlb olunmamışdır. Bu baxımdan XIX əsrin sonları – XX əsrin əvvəllərində Lənkəran qəzasının sosial-iqtisadi durumunu əlaqəli və müqayisəli şəkildə tədqiq etməyə ehtiyac vardır. XIX əsrin sonları – XX əsrin əvvəllərində Lənkəran qəzasının sosial-iqtisadi vəziyyətini tədqiq

---

yenə onun. Краткое наставление к занятию шелководством. Тифлис: 1890.

[1] Жданов И.М. Пчеловодство в Ленкоранском уезде // Кавказское пчеловодство и птицеводство, 1913, №11, с.7-16.

[2] Калугин И.И. Исследование современного состояния животноводства Азербайджана, т. III. Тифлис: 1929.

[3] Хатисов К. Кустарные промысли Закавказского края. Отчеты и исследования по кустарной промышленности в России, т. II. Санкт-Петербург: 1894.

[4] Зелинский С. Культура дыни в Ленкоранском уезде. КСХ, 1898, №208.

[5] Гулишамбаров С.И. Обзор фабрик и заводов Бакинской губернии. Тифлис, 1890; yenə onun. Историко-экономический обзор шелководства Закавказского края. Санкт-Петербург: 1893.

[6] Умаев А.А. Проникновение капитала в сельское хозяйство Азербайджана в 1883-1914 гг. Автореф. канд. дис... Баку: 1963, 26 с.

[7] Кондратенко Е.И. Сборник статистических данных о землевладении и способах хозяйства в пяти губерниях Закавказского края. Тифлис: 1899.

[8] Пиралов А.С. Краткий очерк кустарных промыслов Кавказа // Кустарная промышленность России, т.11. Санкт-Петербург: 1913, с.50.

[9] Петрушевский И.П. Земледелие и аграрные отношения в Иране XIII-XIX вв. Москва-Ленинград: 1960.

[10] Рисс П.Ф. О талышах, их образе жизни и языке // Записки кавказского общества, 1855, вып.III с.в.

[11] Миллер Б.В. Талышский язык. Москва: 1953.

[12] Малышев А. Достижение в сельском хозяйстве Азербайджана // Экономический вестник Азербайджана. Баку: 1926, №4, с. 12.

edərkən bir sıra yeni müddəalar irəli sürülmüşdür:

- XIX əsrin sonu – XX əsrin əvvəllərində Lənkəran qəzasının iqtisadi və sosial inkişafının spesifik xüsusiyyətlərinin müqayisəli təhlili aparılmışdır;
- XIX əsrin sonu – XX əsrin əvvəllərində bölgənin kənd təsərrüfatı sahələrinin – əkinçilik, maldarlıq, o cümlədən suvarma sistemi və sudan istifadənin inkişaf xüsusiyyətləri araşdırılmışdır;
- XIX əsrin sonu – XX əsrin əvvəllərində Lənkəran qəzasında aqrar münasibətlər, kəndlilərin kateqoriyaları, torpaq mülkiyyət formaları, vergi və mükəlləfiyyətlər və onların mahiyyəti tədqiq edilmişdir;
- XIX əsrin sonu – XX əsrin əvvəllərində qəzanın əsas ticarət və sənətkarlıq mərkəzləri, bölgənin sənaye müəssisələrinin meydana gəlməsi, xüsusilə də Lənkəran şəhərinin ticarət və sənaye mərkəzlərindən biri kimi inkişaf dinamikası təhlil edilmişdir;
- XIX əsrin sonu – XX əsrin əvvəllərində Lənkəran qəzasının sosial durumu, sosial təbəqələşmə və sosial qruplar arasındakı münasibətləri araşdırılmışdır;
- XIX əsrin sonu – XX əsrin əvvəllərində bölgə əhalisinin etnik və dini tərkibi, əhalinin say dinamikası, şəhər və kəndlərdə yaşayan əhali arasında iqtisadi və sosial münasibətlər tədqiq edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Müasir dövrdə Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində iqtisadi inkişafın və iqtisadi münasibətlərin ardıcıllığının və davamlılığının böyük əhəmiyyəti vardır. Bazar iqtisadiyyatı istiqamətində uğurla irəliləyən dövlətimizin bölgələrdə həyata keçirdiyi sosial-iqtisadi tədbirlər olduqca təqdirəlayiqdir. Bu baxımdan bölgələrimizin sosial-iqtisadi tarixini öyrənmək və bu bölgələrə fərdi yanaşmaq olduqca vacibdir. Bu baxımdan XIX əsrin sonu – XX əsrin əvvəllərində Lənkəran qəzasının sosial-iqtisadi tarixinin tədqiq edilərək, cəmiyyətin müzakirəsinə təqdim etmək, tədqiqat işinin əhəmiyyətini artırır.

Tədqiqat mövzusu araşdırılarkən, əldə olunan elmi yeniliklər nəzəri əhəmiyyətə malikdir. Tədqiqat işindən Azərbaycan tarixinə dair ümumiləşdirilmiş əsərlər yazılmasında, Azərbaycanın sosial-iqtisadi tarixinin öyrənilməsində, bölgələrin sosial-iqtisadi konsepsiyasının hazırlanmasında, ali məktəblərdə Azərbaycanın sosial-iqtisadi tarixi fənninin tədrisində istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya Lənkəran Dövlət Universitetinin "Tarix və fəlsəfə" kafedrasında yerinə yetirilmişdir. Dissertasiya kənar elmi müəssisələrdən də dəvət olunmuş mütəxəssislərin iştirak ilə adı çəkilən kafedrada iki dəfə müzakirə edilərək müdafiəyə məsləhət görülmüşdür. Dis-

sertasiyanın əsas məzmunu müxtəlif elmi jurnallarda, konfrans materiallarında nəşr olunmuş bütöv bir sıra elmi məqalələrdə əks edilmişdir.

**Dissertasiya işinin strukturu.** Dissertasiya giriş, iki fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "Giriş" hissəsində mövzunun aktuallığı əsaslandırılmış, onun xronoloji çərçivəsi və öyrənilmə səviyyəsi şərh edilmiş, tədqiqatın məqsədi, vəzifələri və metodoloji əsasları müəyyənləşdirilmiş, işin elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti göstərilmişdir.

**"XIX əsrin sonu XX əsrin əvvəllərində Lənkəran qəzasının iqtisadi həyatı"** adlanan birinci fəslinin ilk paraqrafı kənd təsərrüfatının müxtəlif sahələrinin problemlərinə həsr olunub.

Bu paraqraf XIX əsrin sonlarında Lənkəran qəzasında kənd təsərrüfatı sahələrinin ümumi xarakteristikası ilə başlayır. Qeyd olunur ki, Lənkəran qəzası hələ çar I Nikolayın dövründə [1825-1855] həyata keçirilmiş 1840 il 10 aprel qanunu ilə Talış əyalətinin əsasında yaradılmışdı. Lənkəran qəzası 1841-1846 illərdə Xəzər vilayətinin tərkibinə daxil idi. 1846-cı il 14 dekabr tarixli fərmanla Şamaxı quberniyası təşkil edildikdə Lənkəran qəzası onun tərkibinə qatılmışdı. 1859-cu ildə Şamaxıda baş verən zəlzələdən sonra quberniya mərkəzi Bakıya köçürüldüyündən Lənkəran qəzası da inzibati vahid kimi Bakı quberniyasının tərkibinə daxil olmuşdu. Çar Rusiyasının əsarəti altında olduğu dövrdə Lənkəranda qəza idarəçilik sistemi fəaliyyət göstərirdi. Qəzanın mərkəzi Lənkəran şəhəri idi, onun tərkibinə Səbican, Lənkəran, Ərkivan nahiyələri və Muğan pristavlığı daxil idi. Qəzanın ərazisi 4726,88 kv. verst və yaxud 97, 46 kv. mil idi[1].

Lənkəran qəzasında bəhs olunan dövrdə natural icarənin bir neçə növünə rast gəlinir. Onlardan birincisi və ən çox yayılmışı torpağın yarıkərlik icarəsidir. Bu halda adətən icarəçi öz zəhmətini, işçi mal qarasını və toxumlarının ½-ni, sahibkar isə toxumunun ½-ni sərf edirdi. Bəzi hallarda torpağın sahibi öz toxum hissəsini vermirdi, ona görə bu halda icarəçi bu hissəni məhsuldan öz xeyri üçün saxlayırdı, bəzən isə torpaq sahibi toxumu verir, lakin məhsul yığımı zamanı onları geri alırdı və bu zaman məhsulun qalığı yarı bölünürdü. Belə hal icarənin ən sadə və ümumi forması idi. Bu forma-

---

[1] Кавказский календарь на 1917 год. С прил. карты Кавказа, Азиатской Турции и Персии. Тифлис: 1916, с.258; Все Закавказье. Отдел 1. Территория. Экономика. Строй. Тифлис: 1923, с.5.

da həm də belə hallar müşahidə edilir ki, orada torpaq sahibi və icarəçi arasındakı münasibətlər bir qədər dəyişir və mürəkkəbləşir. Bu dəyişikliklər torpağın becərilməsində hər iki tərəfin daha bərabər iştirakına, toxum və işçi mal-qaranın gətirilməsinə aid idi. Belə ki, torpağın sahibi toxumların ½-ni verir və şəxsi əməklə iştirak edir, icarəçi isə toxumlarının ½-i və işçi mal-qaranı verir, bu zaman məhsul bərabər bölünürdü; bəzən isə birinci toxumlarının ½-i və işçi mal-qaranın qalan hissəsini verir və hər iki tərəf şəxsi zəhmətlərini də qoyur, məhsulu bərabər şəkildə bölürdülər. İcarənin digər növü torpağın məhsulunun ½ hissəsindən icarəyə götürülməsi hallarıdır.

Pul icarəsinə keçidi o icarə halları təşkil edirdi ki, suvarılan torpaqdan götürülən məhsul bölüşdürülmür, torpağın sahibi isə ərzaqla müəyyən edilmiş ödəniş alırdı. Bu hallarda torpaq sahibi yalnız torpağı verirdi və bunun müqabilində ondan hər desyatinə görə təmiz düyü ilə ödəniş alırdı. Adətən qəzanın bir çox yerlərində hər desyatinə görə 18, 75-13, 75-7, 50-6, 25 pud düyü icarə haqqı olaraq ödənilirdi [1].

Bu dövrdə kənd təsərrüfatının aparıcı sahələrindən biri olan əkinçilik (taxılçılıq, bağçılıq, bostançılıq, texniki bitkilərin becərilməsi) sahəsi də geniş inkişaf edirdi. Belə ki, XIX əsrin sonu – XX əsrin əvvəllərində – Şimali Azərbaycanın taxılçılıqla məşğul olan bütün rayonlarında olduğu kimi Lənkəran qəzasında da dənli bitkilərin əkin sahəsi xeyli genişləndirilmiş, taxıl məhsulunun ümumi yığımı artmışdır. Bütün Quzey Azərbaycanda dənli bitkilər içərisində buğda və arpa, Lənkəran qəzasında isə bunlarla yanaşı həm də çəltik öz əkin sahəsinə və məhsul yığımına görə yenə də əsas yeri tuturdu.

Lənkəran qəzasının taxılçılıq təsərrüfatlarında yerli taxıl növləri və ənənəvi əkinçilik üsulları üstünlük təşkil edirdi. Lənkəran qəzasında sarı buğda, gurgəni, qaraqılçıq, xırdabuğda, gülüsər, kərə, ağ buğda, səkiləbuğda, qaragiləbuğda, topbaşbuğda, ağ arpa, qara arpa, şeşəri arpa, qılıcı arpa növləri əkilib becərilirdi.

Səpilmə və yetişmə vaxtına görə buğda və arpa payızlıq və yazlıq olurdu. Taxılçılıq təsərrüfatında daha çox payızlıq buğda və arpa əkinlərinə üstünlük verilirdi. XIX əsrin sonu – XX əsrin əvvəllərində Lənkəran qəzasında daha çox çala, tala, dincəqoyma, herik və başqa əkinçilik sistemlərindən istifadə olunurdu.[2]

---

[1] Кистенев Д.А. Экономический быт государственных крестьян Ленкоранского уезда Бакинской губернии // МИЭБГКЗК, т. 7. Тифлис: 1887, с.616.

[2] Очерки сельского и лесного хозяйства Ленкоранского уезда Бакинского губернии. Баку: 1914, с.114.

Çala əkinçiliyi əsasən Viləşçay, Bulqarçay, Astaraçay, Veravulçay, qəza ərazisindəki digər çayların sahil boyu ərazisində yayılmışdır. Qışdan sonra bu çayların daşması nəticəsində sahil torpaqlarının becərilməsi asanlaşır və torpaqların məhsuldarlığı daha da artırdı. Nəticədə bu ərazilərdəki buğda və arpa əkinlərindən yüksək məhsul əldə olunurdu[1].

Lənkəran qəzasında geniş yayılan əkinçilik sistemlərindən biri də tala əkinçiliyi idi. Bu sistem qəzanın meşəlik bölgələrində yayılmışdı. Tala əkinçiliyi meşə yerlərinin açılıb (qırılıb, yandırılıb) əkin sahəsi üçün yararlı hala salınması hesabına sürətlə genişləndirilirdi. Lənkəran qəzasında meşədən təmizlənib, əkin məqsədi üçün istifadə edilən torpaqlar kolat (kulat) adı ilə məlum olmuşdur. Meşə yerlərinin açılması üçün məngəl, düsər, bel, balta və s. kimi əmək alətlərindən istifadə edilirdi. Xalq arasında mövcud olan adətə görə, tala yeri onu meşəlikdən və ya kol-kosdan təmizləyən, abad edən şəxsin adı ilə adlanırdı. Tala əkinçiliyi böyük zəhmət tələb etdiyi üçün bu əsasən icmalıqla həyata keçirilirdi. Meşədən təmizlənmiş sahələrdə əvvəlcə bostan bitkiləri və yaxud çəltik əkilərdi. Kolat olunan ərazilərin sahəsi kifayət qədər genişləndirildikdən sona isə bu torpaqlara buğda və arpa əkilirdi[2].

Lənkəran qəzasının əlverişli təbii-coğrafi şəraiti burada əkinçiliklə yanaşı maldarlığın da yüksək inkişaf etməsinə şərait yaratmışdı. Azərbaycanın cənub-şərqini əhatə edən Lənkəran dağ sisteminin və Lənkəran ovalığının əlverişli iqlimi və zəngin florası – bol çəmənlikləri, geniş otlaqları, dağ bulaqları ilə zəngin olması bu ərazilərdə əsrlər boyu maldarlığın inkişafına əsaslı zəmin yaratmışdır. Ərazidə mövcud olan subalp və alp çəmənlikləri maldarlıq üçün əvəzsiz yem mənbəyi idi. Burada bitən çoxillik bitkilər növ müxtəlifliyi, keyfiyyətinin üstünlüyü və əhəmiyyətliliyi ilə səciyyələnən əsas yem mənbəyi sayılırdı. Köçmə və yarımköçmə maldarlıq formaları şəraitində yaylaqlar və oradakı geniş örüşlər maldarlığın aparıcı təsərrüfat sahələrindən birinə çevrilməsinə az təsir göstərməmişdir. Bu inkişaf özünü maldarlıq təsərrüfatında açıq-aşkar büruzə verirdi.

Lənkəran qəzasına daxil olan nahiyələri maldarlıqla məşğul olma səviyyəsinə görə bir neçə qrupa bölmək olar. Birinci qrupa əsasən maldarlıq üzrə ixtisaslaşmış əraziləri daxil etmək olar. Bu qrupa daxil olan və geniş otlaq sahələri, bulaqlarla zəngin Zuvand, Alar, Drıq, Səbidəc və Astara (dağlıq əraziləri) nahiyələrinin mülkədar və varlı kəndlilərin ixtiyarında

---

[1] Очерки сельского и лесного хозяйства Ленкоранского уезда Бакинского губернии, с.114.

[2] Yenə orada, s.116.

minlərlə baş iribuynuzlu, on minlərlə baş xırdabuynuzlu mal-qara var idi və onlar demək olar ki, əmtəə maldarlığı ilə məşğul olurdular, yəni mal-qara və heyvandarlıq məmulatları – süd, pendir, yağ, yumurta, gön, dəri və s. satmaqla öz kapitallarını artırırdılar. İkinci qrupa o nahiyə və kəndlər daxil idi ki, həmin ərazilərdə əkinçiliklə yanaşı maldarlığın da paralel inkişaf etdirilməsi üçün əlverişli şərait var idi. Bura Səbidəc, Adnabazar, Ərkivan nahiyəsinin bir hissəsi, Lənkəran nahiyəsinin dağətəyi əraziləri daxil idi. Bu ərazilərdə maldarlıq həm fərdi istehlak, həm də əmtəə xarakteri kəsb edirdi. Maldarlıqla məşğul olan əhalinin üçüncü qrupuna isə Lənkəran qəzasını əhatə edən demək olar ki, bütün yerdə qalan kəndlər daxili idi ki, bu kəndlərdə maldarlığa yalnız köməkçi məşğuliyyət sahəsi kimi yanaşırdılar. Belə ərazilərdə kəndlilərin ixtiyarında yalnız bir və ya bir-neçə baş mal-qara və onlarla baş qoyun-keçi olurdu ki, bu da onların heyvandarlıq məhsullarına – ətə, südə, pendirə, yağa və s. olan fərdi tələbatını ödəmək üçün sərf olunurdu və satışa demək olar ki, heç nə çıxarılmırdı.

İribuynuzlu heyvanlar saxlamaq təkcə satış və ətlik üçün deyil, həm də əkinçilərin həyatında qoşqu vasitəsi kimi mühüm əhəmiyyət kəsb edirdi. Çünki, o dövrdə iribuynuzlu mal-qara kəndli təsərrüfatının əsasını təşkil etməklə bir növ əhalinin iqtisadi vəziyyətinin göstəricisi də hesab olunurdu. Çünki, qaramalı olmayan kəndli müstəqil təsərrüfat idarə edə bilmir və varlı kəndlilər və iri torpaq sahiblərindən asılı vəziyyətə düşürdü.[1]

İri buynuzlu mal-qaranın sayına gəldikdə isə qeyd etmək lazımdır ki, 1903-cü ildə Lənkəran qəzasında 229657 baş, 1910-cu ildə isə 234583 baş iribuynuzlu heyvan olmuşdur[2].

M.Ə.İsmayılovun monoqrafiyasında verilən məlumatları müqayisə etdikdə belə məlum olur ki, əkinçilik (taxılçılıq) üzrə bütün Bakı quberniyası üzrə öncül yerə sahib olan Lənkəran qəzası maldarlığın inkişafı baxımından Bakı, Göyçay və Quba qəzalarını ötsə də, Şamaxı və Cavad qəzalarından geri qalırdı.

Əsasən köçmə və yarımköçəri maldarlıq formasına əsaslanan qoyunçuluq təsərrüfatı XIX əsrin sonu-XX əsrin əvvəllərində Lənkəran qəzasının maldarlıq təsərrüfatında birinci yeri tuturdu.

Bu dövrdə qəzada xırdabuynuzlu heyvanların sayı əvvəlki dövrlə müqayisə edilməz dərəcədə artmış, qoyunçuluqda kəmiyyət və keyfiyyət dəyişiklikləri baş vermişdi. Qeyd etmək lazımdır ki, təkcə Lənkəran qəzası üzrə

---

[1] İsmayılov M.Ə. XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı. Bakı: 1960, s.54.

[2] Yenə orada, s.58.

yox, bütövlükdə Şimali Azərbaycanda mal-qara və xırdabuynuzlu heyvanların sayı haqqında verilən məlumatlar natamam xarakterlidir. Ona görə də əldə olan məlumatlar bəhs olunan dövrdə qəzada heyvanların yalnız təxmini sayı haqqında müəyyən mülahizələr söyləməyə imkan verir. 1843-cü ildə Lənkəran qəzasında 35842 baş qoyun olduğu halda 1851-ci illərdə onların 60000 başa çatmışdır[1].

1910-cu ildə Bakı quberniyasının ümumi maldarlıq təsərrüfatlarında 820282 baş siyahıya alınmış qoyun var idi ki, onun da 17,7 %-i Lənkəran qəzasında cəmlənmişdi[2].

Bəhs olunan dövrdə Lənkəran qəzasında ən çox yayılmış qoyun cinsi caro və ya carov adlanırdı. Bu cins meşəlik zonasının şəraitinə daha çox uyğunlaşan heyvan idi. Bu qoyun cinsi ləzgi qoyununa daha çox oxşayırdı. Lənkəranda qədim qoyun cinsi olan caro əti, südü və yunu etibarilə az çəkili olub, o qədər də sərfəli qoyun cinsi sayılmırdı. Lakin bu cins dağ şəraitinə daha uyğun gəlirdi və sağım müddətində 50-60 l süd, qırxımda 2-2,4 *kq-a* qədər yun verirdi[3].

Qəza ərazisində qoyunçuluğun inkişafına və maldarlıq sahələri içərisində qabaqcıl yerə çıxmasına ilk növbədə ərazinin əlverişli iqlimi, zəngin və keyfiyyətli bitki örtüyü, yaylaq və qışlaq şəraiti kimi amillər şərait yaratmışdı. Bununla yanaşı qoyunun başqa ev heyvanlarına nisbətən yemə az tələbkar olması, çətin şəraitə dözümlü olması, az zəhmət və az xərclə bəslənməsi, eləcə də bol məhsul verməsi də kənd əhalisinin bu sahəyə olan marağının artmasına təsir göstərirdi.

Lənkəran qəzasında olan atların sayına gəldikdə isə qeyd etmək lazımdır ki, 1910-cu ildə bütün Bakı quberniyası üzrə atların sayı 83878 başa çatırdı və hər 100 nəfərə 11,5 at düşürdü. Bu isə o demək idi ki, Lənkəran qəzası əhalisinin təxminən 49,9 faizinin atı yox idi[4]. Atlı həyətlərin sayının az olmasına gəlincə isə qeyd etmək lazımdır ki, bəhs olunan dövrdə atlardan yalnız minik vasitəsi kimi istifadə olunurdu və qoşqu vasitəsi kimi atlara tələbat demək olar ki, yox idi.

XIX əsrin sonu – XX əsrin əvvəllərində Lənkəran qəzasında saxlanılan iribuynuzlu heyvanlardan biri də zebu idi. Onu da qeyd etmək lazımdır ki, sayı çox az olan bu heyvanlar bütün Azərbaycanda yalnız Lənkəran zonasının dağlıq ərazisində rast gəlmək olardı. Zebudan qoşqu qüvvəsi və süd-

---

[1] Azərbaycan etnoqrafiyası. 3 cilddə. I cild. Bakı: 2007, s.228.
[2] İsmayılov M.Ə. XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı, s.58.
[3] Azərbaycan etnoqrafiyası. 3 cilddə. I cild, s.234.
[4] İsmayılov M.Ə. XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı, s.59.

lük heyvan kimi istifadə olunurdu[1].

I fəslin ikinci paraqrafı "Sənətkarlıq və ticarət" adlanır. Bu bölmədə qeyd olunur ki, XIX əsrin son rübü və XX əsrin əvvəllərində şəhərin iqtisadi həyatında sənətkarlıq və sənaye əsas sahələr olmaqla mühüm yer tuturdu. Lənkəran sənətkarlarının hazırladıqları sənətkarlıq məmulatları daxili tələbatı ödəməkdən savayı Azərbaycanın digər şəhərlərinə də göndərilirdi. Nəzərdən keçirilən dövrdə Lənkəranda sənətkarlığın dərziçilik, papaqçılıq, sərraclıq, dəmirçilik, çilingərlik, qalayçılıq, bənnalıq, qəssablıq, toxuculuq, misgərlik kimi sahələri yenə sifariş üçün məhsul istehsal etməkdə idi. Daha doğrusu, şəhər iqtisadiyyatının ümumi inkişafı yeni münasibətlərin – kapitalist münasibətlərinin meydana gəlməsi sənət sahələrində köklü dəyişiklik yarada bilməmişdi. İslahatdan sonrakı dövrdə sadaladığımız sənət sahələrinin bəzilərində muzdlu əməkdən istifadə edilirdi.

Sifarişlə məhsul istehsal edən sənətkarların istehsal etdikləri məhsulun xarakterində tədqiq olunan dövrün axırlarına qədər elə bir dəyişiklik olmamışdırsa da, onların sayındakı artım nəzəri cəlb edirdi. Belə ki, 1880-ci il «Lənkəran şəhərinin kameral təsviri»nə görə şəhərdə 19 dərzi, 24 papaqçı, 4 sərrac, 14 dəmirçi, 17 çilingər, 2 bənna, 4 qəssab, 2 misgər, 10 toxucu, 7 dəllək, 2 saatsaz, 5 bərədüzəldən, 8 başmaqçı qeydə alınmışdısa, 1902-ci ildə şəhərdə 23 dərzi, 20 papaqçı, 3 sərrac, 71 dəmirçi, 21 çilingər, 15 bənna, 9 qəssab, 6 misgər, 8 toxucu, 11 dəllək fəaliyyət göstərirdi. Sifarişlə məhsul istehsal edən sənətkarların say artımı sonrakı illərdə nəzərə çarpırdı. 1916-cı ilin məlumatına görə isə şəhərdə 32 dərzi, 24 papaqçı, 6 sərrac, 23 dəmirçi, 27 çilingər, 17 bənna, 8 qəssab, 8 misgər, 5 toxucu, 14 dəllək və s. fəaliyyət göstərirdi. Gətirilən rəqəmlərdən belə məlum olur ki, 1880-ci illərdə Lənkəranda 118, 1902-ci ildə 140, 1916-cı ildə 164 sifarişlə işləyən sənətkar var idi[2]. Bu rəqəmlər müvafiq illərdə şəhərdə fəaliyyət göstərən sənətkarların tam sayını göstərmir. Ona görə ki, əmtəə istehsalı səviyyəsinə yüksəlmiş sənət sahələrində fəaliyyət göstərən sənətkarların sayı onlara əlavə edilməlidir.

Qeyd etdiyimiz kimi Lənkəranda elə sənət sahələri var idi ki, onlar artıq xırda əmtəə istehsalı sahəsinə yüksələ bilmişdi. Sənətkarların xırda əmtəə istehsalına keçməsi bilavasitə bazarla təmasdan irəli gəlirdi. Sənətkarlığın belə sahələrindən xalçaçılığı, kərpicbişirməni, ağacişləməni göstərmək olar.

I fəslin üçüncü paraqrafı bölgədə sənaye müəssisələrinin yaranması və bazar iqtisadiyyatı münasibətlərinin meydana gəlməsi probleminin tədqiqi-

---

[1] Azərbaycan etnoqrafiyası. 3 cilddə. I cild, s.272.
[2] ARDTA, f. 44, siy. 6, iş 175, v. 142.

nə həsr olunub. XIX əsrin 80-ci illərindən etibarən Lənkəran iqtisadiyyatının balıqçılıq və meşə materialları istehsalı getdikcə daha çox sənaye xarakteri alırdı. Məlum olduğu kimi, balıqçılıq hələ xanlıq dövründə belə Lənkəran iqtisadiyyatında mühüm rol oynamışdı. Hələ XIX əsrin 70-ci illərində Lənkəran balıqçılığın əmtəə pul münasibətləri özünü göstərmiş, muzdlu əməyin tətbiqi geniş yayılmışdı. Hər iki amil XIX əsrin 80-ci illərindən başlayaraq daha da intişar tapmış və təsərrüfatın bu sahəsində kapitalist münasibətlərinin inkişaf etməsinə səbəb olmuşdu.

Yerli kapital sahiblərinin fəaliyyəti üçün kifayət qədər işçi qüvvəsi var idi. Bu işçi qüvvəsi əsasən 1870-ci il islahatından sonra torpaqsız qalan və olduqca az torpağı qalan kənd əhalisindən ibarət idi ki, həmin əhalinin də yaşamaq üçün yeganə çarəsi öz işçi qüvvəsini satmaqdan ibarət idi.

Şimali Azərbaycan iqtisadi əlaqələrinin ildən-ilə genişlənməsində Lənkəran limanının da böyük rol oynaması, onun mühüm balıqçılıq mərkəzlərindən birinə çevrilməsi burada kapitalist münasibətlərinin inkişafına təkan verirdi. Lənkəranda balıqçılıq kapitalizminin inkişafını müəyyən edən amillərdən biri muzdlu əməkdən daha geniş istifadə olunması idi. Öz əməyini satan həmin şəxslər istehsal vasitələri, torpaq, əmək alətləri və s. əlindən çıxmış, yəni yoxsullaşmış muzdlu fəhlələrə çevrilirdilər.

Lənkəranın ən böyük balıq vətəgəsi bir tərəfdən şəhərin dəniz sahilinə söykənmiş, o biri tərəfdən 15 kilometrə qədər uzanan, eni 1-1,5 verstə qədər olan Qumbaşı vətəgəsi idi. Vətəgə iki hissədən ibarət idi. Uzunluğu 6 verstə bərabər olan birinci hissə şəhərə daha yaxın idi. İkinci hissə isə şəhərdən bir qədər aralı küləkdöyəndə yerləşirdi ki, onun uzunluğu 8-9 verstə bərabər idi. 60-70 kv. verstlik bir ərazini əhatə edirdi. O, balıq ovu üçün xeyli əlverişli idi[1].

Vətəgə 1897-ci ilin iyun ayının 20-dən Nova-Afyon monastırına 12 illiyə icarəyə verildi. Monastır dövlət xəzinəsinə 4500 rubl pul keçirməli idi. Həmin tarixdən vətəgəni icarəyə götürən monastır onun ərazisində xeyli təşkilati və texniki işlər gördü. Vətəgə qayıqlarla və balıq torları ilə kifayət qədər təmin edildi. Monastır Qumbaşı vətəgəsinin sol sahilində və Sarı adası yaxınlığında olan yerləri də icarəyə götürdü[2]. Qumbaşı vətəgəsində hündür qüllə tikildi ki, buradan da monastır icarəsində olan sahə və bu sahədə balıqçıların fəaliyyəti müşahidə olunurdu. Monastır vətəgə ərazisində üç iri anbar tikdirdi. Anbarların yeri asfaltla döşənmişdi. Onlarda 32-yə qədər ağac çənlər yerləşdirilmişdi. Bu çənlərdə balıq duzlanır, sonra isə çənlərin

---

[1] Cəfərli N.H. Lənkəran (tarixi oçerk). Bakı: 1995, s.48.

[2] Рыбный промысел западного побережья Каспийского моря. Баку: 1914, с. 22-23

yanında düzəldilmiş taxta sallar üzərinə yığılırdı. Buradan da duzlanmış balıq əl arabalarına və ya xüsusi düzəldilmiş vaqoncuqlara yığılıb göndəriş məntəqəsinə daşınırdı. Hər bir çəndə 600-650 pud balıq duzlamaq mümkün idi.

Qeyd etdiyimiz anbarlardan başqa balığın saxlanılması üçün vətəgənin texniki işlər sahəsində çox da böyük olmayan bir neçə anbar və kilsə də var idi. Kilsə daxili hissədən sadə olmaqla yanaşı, ibadətçilər üçün olduqca əlverişli idi[1]. Vətəgə məntəqəsində olduqca əlverişli çox da böyük olmayan ikimərtəbəli mehmanxana tikilmişdi. Burada vətəgəni icarəyə götürən «rahib qardaşlar» gələn qonaqları yüksək səviyyədə qəbul edirdilər. Məntəqə hasarlarından kənarda fəhlələr üçün kazarma da tikilmişdi. Ovlanmış balığı şəhərə gətirmək üçün balıqçı qayıqlardan istifadə edilirdi. Vətəgə öz səliqəsinə, təmizliyinə, texniki avadanlıqla təmin olunmasına görə Astaradan tutmuş Dərbəndə qədər olan vətəgələr içərisində birinci yeri tuturdu. Balıq ovu yay aylarını çıxmaq şərti ilə bütün il boyu aparılırdı. Oktyabr aylarından başlanan ov yazın axırlarına qədər davam etdirilirdi. Vətəgədə fəaliyyət göstərən işçi qüvvəsi demək olar ki, daimi fəhlələr idi. Onlar əsasən ruslardan və azərbaycanlılardan ibarət idi. Qumbaşı vətəgəsində əsasən kütüm, çəki balığı, çapaq balığı, durna balığı, taran və s. balıqlar ovlanırdı. İlk vaxtlar vətəgənin illik istehsalı 20000 puda bərabər idi. Sonralar bu rəqəm üç dəfəyə qədər artırıldı. Lənkəranın balıq sənayesində Sarı adası yaxınlığındakı vətəgənin də böyük rolu var idi[2]. Bu vətəgə də Avropa təbəələri olan Reytman və Kastebrə və erməni Səfərova icarəyə verilmişdi. Burada ovlanan balıq Həştərxana və xaricə ixrac olunurdu. Bu vətəgənin illik istehsalı 80000 puda və ya 800000 manata bərabər idi. Burada ovlanan balıq Sarı reydi ilə paroxodlarla Lənkərana göndərilirdi. Buradan da Bakı reydinə işləyən paroxodlarla digər yerlərlə ixrac olunurdu. Vətəgədə balıqdan başqa əla keyfiyyətli kürü də istehsal olunurdu ki, o da Lənkərandan Rumıniyaya və Yunanıstana ixrac olunurdu. İstər Qumbaşı və istərsə də Sarı adası yaxınlığındakı vətəgələr sonralar yerli burjuaziyanın nümayəndələrinin – Mirəhmədxan Talışınski, H.Z.Tağıyev və b. əlinə keçmişdi.

Dissertasiyanın II fəsli **“XIX əsrin sonu XX əsrin əvvəllərində Lənkəran qəzasının sosial durumu”** adlanır. Bu fəslin “Bölgə əhalisinin etnik-dini tərkibi” adlı birinci paraqrafı qəza əhalisinin etnik tərkibinin tədqiqinə həsr olunub.

XIX-XX əsrin əvvəllərində Lənkəran qəzasının etnik durumuna gəlincə

---

[1] Рыбный промысел западного побережья Каспийского моря, с. 24.

[2] Cəfərli N. H. Lənkəran (tarixi oçerk), s.49.

qeyd etmək lazımdır ki, burada yaşayan xalqlar öz milli mənsubiyyətinə görə çox müxtəlif idi. Bu baxımdan onları qrupa ayırmaq olardı: Azərbaycan türkləri, talışlar və ruslar.

Türk mənşəli əhali qəzanın etnik çoxluğunu təşkil edərək əsasən Səbidacın bütün dağlıq və dağətəyi ərazilərində, Viləşçay, Göytəpəçay, Qamşarçay və b. çaylar boyu yerləşən Zuvandın kəndlərində, Pornaimin əksər ərazilərində, Drıq mahalında, Alarda, Səhrədabadda və rus əhalisinin tutduğu hissə istisna olunmaqla bütün çöllük ərazilərdə yaşayırdılar.

Talışlar Astara mahalında, Zuvand dağlarında, Drıq mahalında, Pornaimin bir hissəsində (altı kənd: Lümaliç, Şivlə, Vorqəduz, Yuxarı Xanəgah, Gəndob və Osyadarya) yaşayırdılar.

Talışlar İran dil ailəsinə mənsub olan etnik qrup idi və öz xüsusi dillərində danışırdılar. Talış dili fars dili ilə böyük oxşarlığa malik olmasına baxmayaraq, müstəqil dialekt idi və qəza əhalisinin 30%-i bu dildə danışırdı. Dini mənsubiyyətlərinə görə onlar müsəlmandırlar və şiə və sünnilərə bölünürdülər. Sünni məzhəbli talış əhalisi yalnız Astara mahalında yaşayırdı, qalan bütün talışlar isə şiə məzhəbli idi. Çar Rusiyasının müstəmləkəçi siyasətinin tərkib hissəsi olaraq şiə və sünni məzhəbli əhali arasında dini adətlər və mərasimlər baxımından mövcud olan fərqlər və antaqonist meyllər daimi olaraq dərinləşdirilirdi.

Talışlar qəzanın yerli əhalisinin bir hissəsini təşkil etməklə bir xalq kimi unikal cəhətlərə malik idilər. Onların məişət və adət-ənənələrində çoxlu özünəməxsus inkişaf xüsusiyyətləri müşahidə olunurdu. Onlar təkcə mənsubiyyət və dillərinə görə deyil, həm də həyat tərzlərinə görə qəzanın etnik çoxluğunu təşkil edən Azərbaycan türklərindən fərqlənirdilər. Etnoqrafik baxımdan onlar yekcins qrup deyildilər və talışlara, pornaimlərə, alarlara, oyratlılara və zuvandlılara bölünürdülər; onlar isə öz növbələrində drıqlara, piranlılara və zuvandlılara bölünürdülər.

Birincilər bütün meşə sahilinin əhalisini təşkil edirdilər; zuvandlılar Zuvand dağlarının cənub-qərb hissəsini tuturdular, piranlılar isə şimal-şərq; drıqlılar Drıq mahalında, pornaimlilər isə Viləşçay və Şaqratukçay arasında yerləşən həmin dağ ərazisinin cənub hissəsində yaşayırdılar. Orandlılar köçmə tayfa kimi yayda öz yaylaqlarında, qışda isə meşədə yaşayırdılar.

Bütün bu qruplar təmiz etnoqrafik xüsusiyyətlərdən başqa öz aralarında həyat tərzinə görə də fərqlənir və köçmə maldarlıqdan məlum mədəniyyətli tam oturaqlığa keçid dövründə yaşayırdılar. Sahildə yaşayan əhali daha oturaq və mədəni idilər, onlar artıq tamamilə qəbilə həyatı və patriarxal ailə ilə vidalaşıblar və şəxsi ailənin daha yüksək təşkilatına keçmişdilər.

Talışlar qəza əhalisinin nisbətən yoxsul hissəsini təşkil edirdilər. Onların

xarakterinin fərqləndirici xüsusiyyəti əməksevərlik və onun onu əhatə edən çətin iqtisadi və kənd təsərrüfatı şəraitlərlə mübarizə aparmaları, gərgin zəhməti və bacarığı sayəsində öz təsərrüfatlarını aparmaq və saxlamağı bacarmaqları idi. Rus müəllifləri də təsdiq edirdilər ki, talışlar demək olar ki, "bütün ilboyu işləyirdilər və istirahət nədir bilmirdilər". Yayda onlar dağlarda sahə işləri ilə məşğul olurdular, payızın əvvəlində isə düzənliyə enir və bütün payızı, qışı və yazı onlar ya qamış və kötük toplamaqla meşədə keçirir, ya da ki kəndlərdə düyü təmizləmək işi ilə məşğul olurdular; yalnız belə yorulmaz zəhmətlə onlar öz mövcudluqlarını saxlaya bilirdilər. Hədsiz enerji və zəhmətlərinə baxmayaraq zuvandlılar pis yaşayır və hətta sahil talışlarından da yoxsul idilər, çünki onların təsərrüfatı həm ölçülərinə, həm də gəlirliliyinə görə sahil talışlarından daha pis vəziyyətdə idi[1].

Dissertasiyanın II fəslinin sonuncu paraqrafı "Əhalinin say dinamikası" adlanır. Qeyd olunur ki, bu dövrdə qəzada həm kəndlərin ölçüsü, həm də onların faiz nisbəti daha fərqli olmuş, kəndlərin böyük əksəriyyəti daha xırda yaşayış yerlərinə bölünmüşdür. Tədqiq olunmuş kəndlərin rayonundakı hər bir millətin qəsəbələrinin sayı belə ifadə olunurdu: 233 Azərbaycan türkü kəndi, 195 talış kəndi və 9 rus kəndi; ümumiyyətlə isə 259 kənd yerinə 436 kənd.

Burada qeyd etmək lazımdır ki, kəndlərin bu sayı ümumi cədvəldə olan say ilə üst-üstə düşmür. Bu, ona görə belədir ki, sonuncuda yalnız o kəndlər yerləşdirilib ki, onlar da həm əhalini, həm də torpaq ehtiyatlarını göstərmək mümkün olub; bütün başqaları isə qeyd edilməyib. Bundan başqa, cədvəldə administrasiyanın siyahısında olmayan iki kənd də var – bu Güllü və Ceyrankeçməz kəndləri idi. Bu kəndlər yeni idi. Onlar icarəyə verilən xəzinəvergi maddəsində yerləşirdilər: Güllü kəndi 1 N-li "Güllü" sahəsində, Ceyrankeçməz eyniadlı qışlaqda və aid idi; birinci – çöl rayonuna, ikinci isə – meşəsiz dağətəkləri rayonuna şamil idi.

Kəndlərin haqqında ətraflı yazılıbətlərinin sayına görə bölüşdürülməsində o fakt qeyd edilməlidir ki, onlar öz ölçülərinə görə elə də böyük deyildilər. Onların ölçülərinin bu dəyişikliklərini onların məxsus olduqları rayonların topoqrafik şəraitlərdən asılılıqda nəzərdən keçirərkən, biz görürük ki, dağ zolağının kəndləri öz ölçülərinə görə sahil-çöl zolağının kəndlərindən kiçik idilər, bununla bərabər, zolaqların hər birində meşəsiz rayonlar daha çox həyəti olan kəndləri tutur, nəinki meşə rayonları. Bu baxımdan yalnız meşəsiz Zuvand dağlarının balaca kəndləri istisna təşkil edirdi, burada məs-

[1] Кистенев Д.А. Экономический быт государственных крестьян Ленкоранского уезда Бакинской губернии, с.550.

kunlaşmaq üçün qeyri-adi və çox əlverişsiz şərait mövcud idi və çoxdan burada mövcud olan meşə-sahil kəndləri çox az sayda tüstüyə malik idi.

Əgər kəndlərin parçalanma prosesini həmin şəraitlərdən asılılıqda nəzərdən keçirsək, onda biz belə nəticəyə gəlirik ki, o, bütün kəndlərdə eyni forma və ölçüdə ifadə olunmurdu. Dağ zolağında qəsəbələri olan kəndlərin çoxu meşə rayonuna aid idi və meşələr kəndlərdən yaxın məsafədə yerləşirdi. Onların çox az bir hissəsi meşəsiz rayonlara aid idi.

Əhalinin etnik konfessional tərkibinin araşdırılması belə bir nəticəyə gəlməyə imkan verir ki, bu bölgənin əhalisinin əsas hissəsini avtoxton Azərbaycan türkləri, habelə irandilli talışlar təşkil edirdilər. Əhalinin az bir hissəsi isə romanovların müstəmləkə əsarəti dövründə buraya köçürülmüş xristianların, əsasən rusların payına düşmüşdü.

**Dissertasiyanın nəticə hissəsində** tədqiqatın başlıca yekunları verilmiş, əsas müddəalar və ümumiləşdirmələr öz əksini tapmışdır.

**Dissertasiyanın əsas məzmunu** müəllifin aşağıdakı məqalələrində şərh olunmuşdur:


1. XIX yüzilliyin sonuna yaxın Lənkəran qəzasında kənd təsərrüfatının vəziyyətinə dair // AMEA Tarix İnstitutu, Azərbaycan Tarix Qurumu Azərbaycan Xalq Cümhuriyyətinin 83-ü ildönümünə həsr olunmuş Respublika Elmi Konfransının materialları. Bakı: Ağrıdağ, 2001, s. 153-154
2. XX yüzilliyin əvvəllərində Lənkəran şəhərinin tarixi barəsində bəzi məlumatlar // AMEA Tarix İnstitutu, Azərbaycan Tarix Qurumu Azərbaycan Xalq Cümhuriyyətinin 83-ü ildönümünə həsr olunmuş Respublika Elmi Konfransının materialları. Bakı: Ağrıdağ, 2002, s.154-155
3. XIX yüzilliyin axırlarında Lənkəran qəzasının rus əhalisi barəsində bəzi məlumatlar // AMEA Tarix İnstitutu, Azərbaycan Tarix Qurumu Azərbaycan Xalq Cümhuriyyətinin 83-ü ildönümünə həsr olunmuş Respublika Elmi Konfransının materialları. Bakı: 2003, 81-83
4. XIX əsrin 80-ci illərində suvarma və sudan istifadə qaydaları // AMEA fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. Qlobal və Sosial Ekologiyanın Fəlsəfi Problemi Şöbəsi. Ekologiya, Fəlsəfə, Mədəniyyət. Elmi məqalələr məcmuəsi. 37-ci buraxılış. II hissə. Bakı: 2004, s. 83-85
5. XIX əsrin sonlarında Lənkəran qəzasının çəltikçilik təsərrüfatı haqqında // AMEA fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. Qlobal və Sosial Ekologiyanın Fəlsəfi Problemi Şöbəsi. Ekologiya, Fəlsəfə, Mədəniyyət. Elmi məqalələr məcmuəsi. Bakı: 2005, s. 123-127
6. XIX əsrdə Lənkəran qəzasında əhalinin sayı, etnik və dini tərkibi // AMEA fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. Qlobal və Sosial Ekologiyanın Fəlsəfi Problemi Şöbəsi. Ekologiya, Fəlsəfə, Mədəniyyət. Elmi məqalələr məcmuəsi.

Bakı: 2006, s. 149-153
7. Azərbaycan Demokratik Respublikası (1918-1920) beynəlxalq münasibətlərdə // AMEA fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. Qlobal və Sosial Ekologiyanın Fəlsəfi Problemi Şöbəsi. Ekologiya, Fəlsəfə, Mədəniyyət. Elmi məqalələr məcmuəsi. 44-cü buraxılış. Bakı: 2006, 18-20
8. XIX əsrdə Lənkəran qəzasında müsəlman icmalarının əkin torpaqlarının vəziyyəti // AMEA fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. Qlobal və Sosial Ekologiyanın Fəlsəfi Problemi Şöbəsi. Ekologiya, Fəlsəfə, Mədəniyyət. Elmi məqalələr məcmuəsi. 45-ci buraxılış. Bakı: 2007, s. 43-45
9. XIX əsrdə Lənkəran qəzasında rus icmasında əkin torpaqlarının vəziyyəti // AMEA fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. Qlobal və Sosial Ekologiyanın Fəlsəfi Problemi Şöbəsi. Ekologiya, Fəlsəfə, Mədəniyyət. Elmi məqalələr məcmuəsi. 45-ci buraxılış. Bakı: 2007, s. 54-56
10. XX əsrin əvvəllərində rus işğalından sonra Lənkəranın ictimai-siyasi və iqtisadi vəziyyəti // İİR. Təbriz Universiteti. Təbriz: 2009, s. 54
11. XIX əsrin 2-ci yarısında Lənkəran qəzasında müsəlman və rus icmalarında əkin torpaqlarının kəndlilər arasında bölgüsü // Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı Slavyan Universiteti. Humanitar Elmlərin öyrənilməsinin aktual problemləri (Ali məktəblərarası elmi məqalələr məcmuəsi). 5/2009, 307-312
12. XIX əsrin sonunda Lənkəran qəzasında texniki bitkilərin becərilməsi və maldarlıq // Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı Slavyan Universiteti. Humanitar Elmlərin öyrənilməsinin aktual problemləri. Azərbaycan Respublikası ali məktəblərarası elmi məqalələr məcmuəsi). 6/2010, 282-285
13. XIX əsr və XX əsrin əvvəllərində talışların tarixi etnoqrafik baxımdan öyrənilməsinə dair // Azərbaycan Respublikası Təhsil Nazirliyi. Lənkəran Dövlət Universiteti. AMEA-nn Lənkəran Regional Elmi Mərkəzi. Ümummilli lider H.Əliyevin anadan olmasının 87-ci ildönümünə həsr olunmuş «Müasir elmin aktual problemləri» mövzusunda Respublika elmi konfransının materialları. 07-08 may. Lənkəran: 2010, 95-96
14. XIX əsrdə Lənkəran qəzasında əhalinin say, etnik və dini tərkibi // Azərbaycan Tarix qurumu. Tarix və gerçəklik. Azərbaycan Tarix Qurumu. 2/2010
15. XIX yüzilliyin sonlarında Quzey Azərbaycanın cənub-şərq bölgəsində demoqrafik duruma dair (1887-ci il əhali sayının materialları üzrə) // Müasir elmin aktual problemləri» mövzusunda Respublika elmi konfransının materialları. (1-ci hissə). Azərbaycan Respublikası Təhsil Nazirliyi. Lənkəran Dövlət Universiteti. AMEA-nın Lənkəran Regional Elmi Mərkəzi. Ümummilli lider H.Əliyevin anadan olmasının 88-ci ildönümünə həsr olunmuş, s. 83-86
16. XIX əsrin sonlarında Lənkəran qəzasında suvarma və sudan istifadə qaydaları // Türk dünyası: dünəni və bu günü. Beynəlxalq elmi konfransın tezisləri. 23-24 may. Bakı: 2011, s. 318-320
17. XIX əsrin sonlarında Lənkəran qəzasında suvarma və sudan istifadə qaydaları // Türk dünyası: dünəni və bu günü. Beynəlxalq elmi konfransın tezisləri. Bakı: 2011, s. 238-241

18. XIX əsrin sonlarında Lənkəran qəzasında malikanə torpaqlarından istifadə qaydalarına dair // Tarix və onun problemləri. Bakı: 2011, s. 238-241
19. XIX əsrin sonu, XX əsrin əvvəlləri Lənkəran qəzasında balıq vətəgələrinin vəziyyəti // Azərbaycan Respublikası Təhsil Nazirliyi. Lənkəran Dövlət Universiteti. AMEA-nın Lənkəran Regional Elmi Mərkəzi. Ümummilli lider H.Əliyevin anadan olmasının 90-cı ildönümünə həsr olunmuş «Müasir elmin aktual problemləri» mövzusunda Respublika elmi konfransının materialları. Lənkəran: 2012, s. 78-80
20. Возникновение промышленных предприятий и зарождение рыночных экономических отношений в Ленкоранском уезде в конце XIX – начале XX веков // Кавказ и мир, №15, 2013, с. 95-100
21. О социально-экономической политике царизма в юго-восточной регионе Северного Азербайджана в конце XIX- начале XX вв. // Геополитические интересы России на Кавказе: опыт реализации проблемы. Дагестанский Государственный Университет. Дербентский филиал. Дербенд: 2009, 25-26
22. Экономическое развитие Ленкоранского уезда Бакинской губернии в конце XIX– начале XX века // Интеграция народов Кавказа и России. Махачкала: 2013, с. 216-21
23. Об экономическом развитии в Ленкоранском уезде Бакинской губернии в конце XIX – в начале XX века // Исторична память. 29/2013. Полтава: 2013, с. 114-118

***L.G.Majidova***

## THE SOCIO-ECONOMIC SITUATION OF THE LANKARAN UYEZD (the late XIX – early XX centuries)

## SUMMARY

The study of the socio-economic history of the Lankaran uyezd, part of Baku gubernia which in late XIX – early XX centuries was one of the most favourable provinces of Azerbaijan both from the political and economic point of view is of great importance.

The main goal of the work is to investigate the socio-economic situation of the Lankaran uyezd in late XIX – early XX centuries, to determine the ethnic and religious composition of the population at the time, to follow the dynamics of development of the region's developing industrial and agricultural sectors.

In the "Introduction" of the thesis the relevance of the theme was grounded, the chronological framework and the level of studying was interpreted, the aims, objectives and methodological bases of the research was determined, the scientific innovation and the theoretical and practical importance of the work was noted.

In the first Chapter of the dissertation titled as "The economic life of the Lankaran uyezd in the late XIX – early XX centuries" has been comparatively investigated the general characteristics of the agricultural areas, rules of land ownership and land use, farming and cattle-breeding, water ownership and the use of water, handicraft and trade, the establishment of industrial enterprises and the formation of relationships of market economy in the region.

In the second Chapter of the dissertation titled as "The social status of Lankaran uyezd in the late XIX – early XX centuries" the ethnic and religious composition of the population of the region was analyzed in detail, the dynamics of the population size at the time was observed by stages and in sequence and determined the overall number of the population in the region, and the social status of urban and rural population has become the subject of research.

In the Conclusion of the dissertation the main results of the research was given, and reflected the key theses and generalizations.

*Л.Г.Маджидова*

# СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКАЯ ПОЛОЖЕНИЕ ЛЕНКОРАНСКОГО УЕЗДА (конец XIX – начало XX вв.)

## РЕЗЮМЕ

Исследование социально-экономической истории конца XIX – начала XX века одного из самых благоприятных уездов Бакинской губернии – Ленкоранского уезда, входившей в состав Азербайджана, представляет чрезвычайно важное значение как в политической, так и с экономической точки зрения.

Основной целью исследования социально-экономического положения населения Ленкоранского уезда конца XIX – начала XX века, развивающихся отраслей промышленности и сельского хозяйства в регионе, динамику развития является прослеживание хода развития и определение религиозно-этнического состава населения в этот период.

Во введении даны актуальность и новизна диссертации, хронологические рамки исследования, цели и задачи, определены научно-теоретическая и практическая значимость работы.

В первой главе диссертации – «Экономическое положение Ленкоранского уезда конца XIX – начала XX века», состоящей из трех подразделов, были исследованы все стороны колониальной политики царизма, здесь дана общая характеристика сельского хозяйства – землевладения и землепользования, земледелия и скотоводства, водопользования, ремесла и торговли, создания промышленных предприятий в регионе и отношений рыночной экономики, отраслей сельского хозяйства, где все эти вопросы исследованы сравнительно-аналитическими методами.

Вторая глава диссертации названа «Социальное положение Ленкоранского уезда конца XIX – начала XX века», где подробно проанализирована динамика численности населения региона и города, этнический и религиозный состав населения.

В заключительной части диссертации даны итоги, отражены основные положения и обобщения исследования.

Formatı: 60x84 $^{1}/_{16}$. F.ç.v. 1,75.
Tiraj 100 nüsxə.
Turxan Nəşriyyat-Poliqrafiya Birliyi

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ имени А.А.БАКИХАНОВА**

*На правах рукописи*

**ЛЕЙЛА ГАДИР гызы МЕДЖИДОВА**

5503.02 – История отечества

# СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКАЯ ПОЛОЖЕНИЕ ЛЕНКОРАНСКОГО УЕЗДА
(конец XIX– начало XX вв.)

# А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание научной степени
доктора философии по истории

**БАКУ – 2016**